

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 23 (23.185)

1 fevral 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 31-də Almaniya Federativ Respublikasının Federal İqtisadiyyat və Energetika Nazirliyində dövlət katibi Tomas Baraysın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı belə geniş tərkibdə nümayəndə heyətinin ölkəmizə səfərini Azərbaycanla Almaniya arasında əməkdaşlığın və tərəfdaşlığın yaxşı göstəricisi kimi dəyərləndirərək ölkələrimizin və biznes dairələrinin əlaqələrimizin genişləndirilməsi üçün qarşılıqlı maraq göstərməsindən məmnunluğunu ifadə edib. Almaniya şirkətlərinin uzun illərdir Azərbaycanda uğurlu fəaliyyət göstərdiklərini vurğulayan Prezident İlham Əliyev ölkələrimiz arasında tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə və möhkəmlənəcəyinə əmin olduğunu söyləyib.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən energetika, neft-kimya, qeyri-neft sektoru, təhsil, peşə təhsili və digər sahələrdə inkişafı ilə bağlı fikir mübadiləsi aparılıb, alman şirkətlərinin Azərbaycandakı sənaye zonalarına maraq göstərdikləri qeyd olunub, onların Sumqayıt Kimya Sənaye Parkında iştirakına dair məsələlər müzakirə edilib.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Çinin ölkəmizdəki səfiri ilə görüşüb



Yanvarın 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua ilə görüşüb.

Səfir Vey Cinhua ölkələrimiz arasındakı dostluq münasibətlərinin əsasının Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğunu bildirib, ulu öndərin vətəni Naxçıvana səfərinin əhəmiyyətini vurğulayıb. Çin-Azərbaycan əlaqələrinə diqqəti çəkən səfir Naxçıvan şəhərində yeni uşaq bağçasının qurulmasındakı əməkdaşlığı ikitərəfli münasibətlərə töhfə kimi dəyərləndirib. Vey Cinhua ölkələrimiz arasında dostluq əlaqələrinin inkişafına verdiyi dəstəyə görə Ali Məclisin Sədri Vasif Talıbova minnətdarlıq edib.

Ali Məclisin Sədri bir neçə gündən sonra Çində yeni ilin qarşılanacağını bildirib və bu münasibətlə səfiri təbrik edib, Azərbaycan-Çin əlaqələrinin genişləndiyini, bunun tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikası ilə əməkdaşlığın nümunə səviyyəsində olduğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Çin Xalq Respublikası arasındakı əlaqələrdən, xüsusilə “Huawei” şirkəti tərəfindən yeni texnologiyaların tətbiqi sahəsində həyata keçirilən layihələrdən danışan Ali Məclisin Sədri Naxçıvan şəhərində yeni uşaq bağçasının qurulmasında Çinin ölkəmizdəki səfirliyinin dəstəyini qeyd edib və əməkdaşlığın müxtəlif sahələrdə inkişafının vacibliyini vurğulayıb.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan şəhərində 2 nömrəli uşaq bağçası istifadəyə verilib

Yanvarın 31-də Naxçıvan şəhərində 2 nömrəli uşaq bağçasının açılışı olub.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua açılışı bildirən lenti kəsmişlər.



Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik və quruculuq yolu Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. Aparılan genişmiqyaslı abadlıq-quruculuq işləri nəticəsində muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinin siması tamamilə dəyişilmişdir. Həyata keçirilən tədbirlər sırasında uşaq və gənclərin sağlam böyüməsi, onların təhsili və tərbiyəsi xüsusi yer tutur. Yeni məktəb binalarının, idman obyektlərinin, səhiyyə müəssisələrinin və müasir uşaq bağçalarının istifadəyə verilməsi bu baxımdan mühüm əhəmiyyət kəsb edir. Bu gün istifadəyə verilən 2 nömrəli uşaq bağçası da gələcəyimiz olan uşaqlara göstərilən qayğının daha bir ifadəsidir. Mirsənani Seyidov demişdir: Yeni uşaq bağçasının körpələr qrupunun mebel və avadanlıqlarla təmin olunmasında Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi də öz dəstəyini göstərmişdir. Bu dəstəyə görə cənab səfirə minnətdarlığımızı bildiririk. Ali Məclis Sədrinin *“Uşaqlara qayğı göstərmək, onları himayə etmək gələcəyimizə hesablanmış tədbirlərdir. Ona görə də məktəbəqədər tərbiyə müəssisələrində uşaqların tərbiyəsi, onlara ilkin biliklərin dərindən öyrədilməsi, məktəbə hazırlanması və əsl vətəndaş kimi yetişdirilməsi diqqət mərkəzində saxlanılmalıdır”* fikirlərini diqqətə çatdıran Mirsənani Seyidov uşaqlarımızın sağlam böyüməsinə göstərdiyi yüksək qayğıya və yeni uşaq bağçasının istifadəyə verilməsinə görə Naxçıvan şəhər ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua çıxış edərək demişdir: Yeni uşaq bağçasının qurulmasında Çinin Azərbaycandakı səfirliyi də iştirak etmişdir. Naxçıvanda olmaqdan və uşaq bağçasının açılışında iştirak etməkdən böyük məmnunluq duyuruq. Uşaqlar ölkənin gələcəyidir. Bağça uşaqların təhsilində, onların gələcəyə hazırlanmasında böyük rol oynayır. Müasir bağçada təhsil alan uşaqlar gələcəkdə layiqli vətəndaşlara çevriləcəklər. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vətəni olan Naxçıvan iki ölkə arasında əlaqələrin genişləndirilməsində mühüm rola malikdir. Çin dövləti Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin inkişafında maraqlıdır və bu sahədə fəaliyyət davam etdiriləcəkdir. Göstərilən xoş münasibətə görə təşəkkür edən səfir Vey Cinhua bağçanın kollektivini təbrik etmiş, uşaqlara parlaq gələcək arzulamışdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərində yeni uşaq bağçasının istifadəyə verilməsi münasibətilə sakinləri və kollektivi təbrik edərək demişdir: Təhsil haqqında Azərbaycan Respublikasının qanununa əsasən uşaq bağçaları məktəbəqədər təhsil müəssisəsi kimi uşaqların istedad və qabiliyyətlərinin üzə çıxarılmasını və estetik tərbiyəsini təmin edir. Ona görə də uşaq bağçasında yaradılan şərait uşaqların gələcəkdə məktəblərdə lazımi səviyyədə təhsil almaları üçün ilkin mərhələ hesab olunur.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***“Biz uşaqlarımızı yaxşı tərbiyə etməli, yaxşı şəraitdə yaşatmalı, onları gələcək üçün hazırlamalıyıq”*** fikrini xatırladaraq demişdir: Ümummilli liderimizin tövsiyələrinə uyğun olaraq uşaq bağçasında hərtərəfli şərait yaradılmışdır. Həmçinin görülən bu işlər ölkəmizdə həyata keçirilən dövlət siyasətinin tərkib hissəsidir.

Ali Məclisin Sədri bağçanın qurulmasındakı əməkdaşlığa görə Çin dövlətinə, Çinin Azərbaycandakı səfirliyinə və səfir Vey Cinhuaya təşəkkürünü bildirərək demişdir: Bu əməkdaşlığın nəticəsi kimi Çin dövləti tərəfindən bağçaya avadanlıqların hədiyyə olunması uşaqların həyatında iz buraxacaqdır. Uşaq bağçasında uşaqların tərbiyəsi, ilkin təhsili, qidalanmaları və istirahətləri üçün lazımi şərait yaradılıb.

Ardı 2-ci səhifədə





Bağçanın istifadəyə verilməsi ilə 200 ailəyə köməklik göstərilib. Həmin ailələr övladlarını bu bağçaya etibar edəcəklər. Eyni zamanda uşaq bağçasında 50-yə yaxın yeni iş yeri yaradılıb. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə edilməli, uşaqların qayğısına qalınmalı, tərbiyəsi ilə ciddi məşğul olunmalı, onlar sağlam böyüdülməli və gələcəyə hazırlanmalıdırlar.



Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə və bağçanın muxtar respublikanın nümunəvi uşaq bağçalarının sırasına daxil olacağına əminliyini bildirmişdir.

Valideyn Nuray Əsgərova çıxış edərək demişdir: Bu gün muxtar respublikada digər sahələrlə yanaşı, uşaqların sağlam böyüməsi qayğısına da qalınır. Bu tədbirlərin davamı olaraq Naxçıvan şəhərində yeni uşaq bağçasının istifadəyə verilməsi valideyn kimi məni çox sevindirir. Çünki yeni uşaq bağçası, burada yaradılan şərait övladlarımızın sağlam böyüməsinə xidmət edir. Yaratdıqca ucalan, ucaldıqca daha gözəl yaradan Ali Məclis Sədrinin rəhbərliyi ilə yaradılan bu gözəl şəraitdə yaşamaqdan qürur duyuruq. Nuray Əsgərova hərtərəfli şəraiti olan uşaq bağçasının istifadəyə verilməsi münasibətilə valideynlər adından minnətdarlıq etmişdir.

Sonra bağçaya baxış olmuşdur. Qeyd olunmuşdur ki, yeni yaradılan 200 yerlik bağça 4 mərtəbədən ibarətdir. Binada müdir, valideynlər və tibb otaqları, 2 oyun zalı, metodiki kabinə, dərzi, camaşırxana, mətbəx, bufet, ərzaq anbarı, tədbirlər zalı, tərbiyəçi metodist və digər otaqlar yerləşir. Burada "Oxunması zəruri olan kitablar"dan ibarət guşə yaradılmışdır. Bağçada hər birində yemək və yataq otağı, mətbəx və oyun zalı olan 3 körpələr qrupu, 2 orta qrup, 3 böyüklər qrupu və 2 məktəbəhazırlıq qrupu vardır. Çin Xalq Respublikasının Azərbaycandakı səfirliyi körpələr qrupunu mebel və avadanlıqlarla təmin etmişdir.

Bildirilmişdir ki, bağçada uşaqların sağlam qidalanmasına və sanitar-gigiyenik normalara xüsusi diqqət yetirilir. Yerli və keyfiyyətli ərzaq məhsullarından istifadə olunur.

Valideyn Aybəniz İbrahimova minnətdarlıq edərək demişdir ki, yeni uşaq bağçasının istifadəyə verilməsi bütün valideynlər tərəfindən böyük məmnunluqla qarşılandı. Hər cür şəraiti olan bu uşaq bağçası övladlarımızın sağlam böyüməsi ilə yanaşı, həm də işləyən valideynlərin rahatlığına xidmət edir.



Tədbirlər zalında məktəbəhazırlıq qrupunun uşaqları ulu öndər Heydər Əliyevə, Azərbaycana və Naxçıvana həsr olunmuş şeirlər söyləmiş, mahnılar oxumuş, rəqs etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov və Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vey Cinhua uşaqlarla xatirə şəkli çəkdirmişlər.

Ali Məclisin Sədri uşaqların qidalanmasına və sağlamlığına xüsusi diqqət yetirilməsi, təlim-tərbiyə prosesinin düzgün təşkili, qayğıya ehtiyacı olan, məhdud fiziki imkanlı və hər iki valideyni işləyən uşaqların bağçaya qəbuluna üstünlük verilməsi, eləcə də qurulanların qorunub-saxlanılması barədə tapşırıqlar vermişdir.

Binanın həyətində uşaqlar üçün attraksionlar quraşdırılmış, istirahət guşəsi yaradılmış və abadlıq işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2019-cu ilin yanvar ayında bir sıra qərarlar qəbul etmişdir.

Nazirlər Kabinetinin 2019-cu il 14 yanvar tarixli qərarları ilə "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" 2011-ci il 11 yanvar tarixli 5 nömrəli və "Naxçıvan Muxtar Respublikasında bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində idarəetmə, təhsil və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları sxeminin və məbləğlərinin təsdiq edilməsi haqqında" 2018-ci il 15 mart tarixli 46 nömrəli qərarlarında, "Prokurorluq işçisinin və onun ailə üzvlərinin yeni qulluqkeçmə yerinə köçməsi pulunun və birdəfəlik kompensasiyanın ödənilməsi Qaydası"nda, "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nda, "Elektron xidmət növlərinin Siyahısı"nda və "Təhsil müəssisəsinin maddi-texniki bazası və təhsil infrastrukturu normativləri"ndə dəyişikliklər edilmişdir.

Bundan başqa, Nazirlər Kabinetinin 2019-cu il 30 yanvar tarixli Qərarı ilə "Şərur Rayon Mərkəzi Xəstəxanası" və "Şərur Rayon Uşaq Xəstəxanası" publik hüquqi şəxslərinin nizamnamələri təsdiq edilmişdir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Yeni Azərbaycan Partiyası Rayon təşkilatlarında tədbirlər keçirilib

Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatında "2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda şura yığıncağı keçirilib, təşkilatın təsis olunmasının 26 illiyi qeyd olunub.

Yığıncaqda məruzə ilə çıxış edən Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov deyib ki, bu gün təşkilatın əhatə etdiyi 56 ilk partiya təşkilatında 6862 nəfər partiya üzvü vardır. İl ərzində partiya sıralarına 39 ilk partiya təşkilatından 117 üzv qəbul olunub ki, onlardan 87-si gənc, 65-i isə qadınlardır.

İsa Məmmədov qeyd edib ki, yanvarın 30-da Babək Rayon Təşkilatının yaradılmasının 26 ili tamam olub. Təşkilatın təsis konfransı ulu öndərimiz Heydər Əliyevin iştirakı ilə keçirilib.

"Yeni Azərbaycan Partiyasının uğurları ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılan Babək rayonunu da əhatə edib. Hər il rayonun qəsəbə və kəndlərində kompleks quruculuq işləri aparılır, məktəb binaları tikilir, yaşayış məntəqələri abadlaşdırılır, körpülər, yollar salınır, yeni iş yerləri açılır", – deyən Babək Rayon İcra Hakimiyyətinin başçısı, şura üzvü Rasim Hüseynov qeyd edib ki, ötən il təşkil olunmasının 40 illik yubileyini qeyd edən rayonda aparılan quruculuq işləri davam etdirilib, ucqar dağ və sərhəd kəndləri abadlaşdırılıb.

Məruzə ətrafında çıxışlar olub.

* * *

Yeni Azərbaycan Partiyası Ordubad Rayon Təşkilatında bu siyasi qurumun yaradılmasının 25 illiyi münasibətilə tədbir keçirilib. Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Qürbət Rzayev açaraq məruzə ilə çıxış edib. Bildirib ki, Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasında Yeni Azərbaycan Partiyasının böyük xidmətləri olub.

Vurğulanıb ki, partiyanın 25 il bundan əvvəl təsis edilən Ordubad Rayon Təşkilatı da öz ətrafında dövlətimizə və dövlətçiliyimizə sadiq, vətənpərvər insanları toplayıb. Ötən dövr ərzində təşkilat şərəfli bir yol keçib. Bu gün sıralarında 6050 nəfərdən artıq üzvü birləşdirən təşkilat öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinə uyğun qurub. 54 ilk ərazi təşkilatını özündə birləşdirən Ordubad Rayon Təşkilatı ötən il öz sıralarına 127 nəfər üzv qəbul edib. Bu dövrdə 4 şura, 11 İdarə Heyətinin yığıncağı keçirilib, həmin tədbirlərdə aktual mövzular müzakirə olunub.

Qeyd edilib ki, partiya üzvləri rayonun ictimai-siyasi həyatında da yaxından iştirak edirlər. Bu sırada 2018-ci ildə keçirilmiş prezident seçkilərində partiya üzvlərinin fəallığı xüsusi qeyd olunmalıdır.

Qürbət Rzayev təşkilatın bundan sonra da öz fəaliyyətini partiyanın Proqram və Nizamnaməsinə uyğun olaraq quracağına əminliyini bildirib, partiya üzvlərini təşkilatın yaranmasının 25 illiyi münasibətilə təbrik edib, onlara gələcək işlərində uğurlar arzulayıb.

Tədbir məruzə ətrafında çıxışlarla davam edib.

**Xəbərlər şöbəsi**

*Dünən Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Elmi-Texniki Şurasının növbəti iclası keçirilib. Əvvəlcə kənd təsərrüfatı naziri, Elmi-Texniki Şuranın sədri Bəhruz Bayramov iclasın gündəliyində duran məsələlər haqqında məlumat verib.*

## Elmi-Texniki Şuranın iclası olub

Nazir Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı" 2019-cu il 18 yanvar tarixli Sərəncamı ilə təsdiq olunmuş Tədbirlər Planının icrasına dair verilən tapşırıqların həyata keçirilməsi ilə bağlı məruzə edib, ailə təsərrüfatlarının inkişafının mühüm istiqamətləri barədə danışıb. Qeyd edib ki, kənd təsərrüfatının bütün sahələrində fəaliyyət göstərən ailə təsərrüfatlarının yüksək məhsuldarlığa nail olmaları məqsədilə maarifləndirmə işləri aparılmalıdır.

Tədbirdə kənd təsərrüfatı nazirinin müavini, Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin baş direktoru Fikrət Həsənov torpaqların münbitliyinin artırılması yolları, birliyin Şıxmahmud sort sınaq məntəqəsinin müdiri Məhəmməd Qaybalıyev isə mineral üzvi gübrələrin dənli bitkilərin məhsuldarlığına təsiri ilə bağlı çıxışlar ediblər.

Sonra gündəlikdə duran məsələlərlə bağlı müzakirələr aparılıb.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***



# Gənclərin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayan mərkəz

*Muxtar respublikamızda hər bir gənc onlara bəslənilən ümidləri doğrultmaq üçün səylə çalışır, qazandığı uğurlarla doğma diyarımızın inkişafına, onun dünyada tanıdılmasına öz töhfələrini verir. Elə dövlətimiz də gənclərin arzularının reallaşdırılması, məqsədlərinə çatması istiqamətində xeyli işlər görür. Onların intellektual və yaradıcı potensiallarının üzə çıxarılması, fəallıqlarının artırılması, asudə vaxtlarının səmərəli təşkili istiqamətində məqsədyönlü proqramlar həyata keçirir. Bu diqqət, qayğı isə gənclərin fəaliyyətinin, uğurlarının ilbəil daha da artmasına imkan verir. Həmçinin muxtar respublikamızda gənclər üçün müasir tələblərə cavab verən sosial infrastruktur obyektləri istifadəyə verilir, onların peşəkarlıqlarının artırılması üçün geniş imkanlar yaradılır.*

Bəs şəhərimizdəki Gənclər Mərkəzi bu istiqamətdə hansı işləri görür? Elə bu sualla Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyevə müraciət etdik. O, bizimlə söhbətində bildirdi ki, gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakı, sosial problemlərinin həlli, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının qəbul olunması, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə onların irəli çəkilməsi, uğurlarının qiymətləndirilməsi, bütövlükdə, muxtar respublikada gənclərlə iş sahəsində həyata keçirilən tədbirlərin əsasını təşkil edir. Xüsusilə son illər Naxçıvan Muxtar Respublikası Ali Məclisində gənclərlə iş, bu sahədə qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirələr, verilən konkret tapşırıqlar, bu mənada, mühüm əhəmiyyətə malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı gənclərə göstərilən yüksək diqqət və qayğının növbəti ifadəsidir. Fərmana əsasən Naxçıvan Muxtar Respublikası gənc istedadlarının "Qızıl kitabı" təsis olunub, kitaba adları yazılmış istedadlı gənclər üçün təqaüdün verilməsi qaydaları təsdiq edilib.

Ali Məclis Sədrinin 2018-ci il 27 mart tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu" Publik Hüquqi Şəxsin yaradılması isə diyarımızda gənclər siyasəti ilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönəlmiş fəaliyyətin stimullaşdırılmasını, bu sahədəki tədbirlərin, gənclərlə bağlı layihələrin həyata keçirilməsini daha da genişləndirib.

Cəbi Quliyev vurğuladı ki, Gənclər Fondu 2018-ci il ərzində müxtəlif layihələrin həyata keçirilməsini dəstəkləyib, bu layihələrdə gənclərin intellektual inkişafı, onların asudə vaxtlarının səmərəli təşkil olunması və müxtəlif layihələrdə birgə iştirakları ön plana çəkilib. Fond tərəfindən tələbə-gənclərin karyera seçiminin və hazırlığının düzgün aparılması, gənclərin cəmiyyət üçün yararlı kadr kimi formalaşması, onların gələcək karyeralarında sağlam addım atmaları və fəallıqlarının artırılması məqsədilə "Gənclərin aktivliyinə psixoloji dəstək", "Gənc Tusilər", "Gənclikdən uğur stansiyasına", "Düşüncədən uğura" kimi təlim və seminarlar, "Mənim ikinci peşəm", "Gənclərin istehsalat prosesi ilə tanışlığının təmin olunması" kimi uzunmüddətli layihələr, sağlamlıq imkanları məhdud uşaqların asudə vaxtlarının səmərəli təşkili, onların istedadlarının aşkara çıxarılması, yaradıcılıq imkanlarının genişləndirilməsi, eləcə də intellektual səviyyələrinin artırılması məqsədilə "Sən gül ki, dünya gülsün" adlı tədbir keçirilib.

Muxtar respublika gənclərinin ədəbi prosesdə iştirakı, onlarda bədii yaradıcılıq işinin gücləndirilməsi, bədii tərcümənin inkişaf etdirilməsi və bu sahədə istedadlı gənclərin müəyyən olunması məqsədilə "I muxtar respublika tərcümə müsabiqəsi" keçirilib. O cümlədən "Naxçıvanı tanıyaq" devizi altında gənclərin muzeylərə ekskursiyası, rayon və şəhər mərkəzlərində gənclər arasında müxtəlif intellektual oyunlar, kitab müzakirələri, gənclərin məntiqi təfəkkürünün inkişafına, liderlik, komanda işi, inandırma və təqdimetmə bacarıqlarının aşkar olunmasına, habelə müasirdüşüncəli gəncliyin yetişməsinə nail olmaq məqsədilə müxtəlif tədbirlər təşkil edilib. Bununla yanaşı, "Beynəlxalq tələbə-gənclər həftəsi" ilə əlaqədar tələbə-gənclər təşkilatları arasında "Ailə biznesi" simulyasiyası və mini-futbol turniri reallaşdırılıb. "Ailə biznesi" simulyasiyası muxtar respublikamızda bu qəbildən həyata keçirilən ilk layihə olmaqla yanaşı, gənclərdə komanda işinin təşkili, birgə fəaliyyətin təmin olunması və ailə biznesi anlayışını gənclərə aşılamaq baxımından xüsusi əhəmiyyət kəsb edir.

Müsahibimin sözlərinə görə, Naxçıvan şəhərinin ölkəmizin Gənclər Paytaxtı seçilməsi ilə əlaqədar olaraq Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının Gənclər fondlarının birgə təşkilatçılığı ilə 30 noyabr-2 dekabr tarixlərdə ölkəmizin müxtəlif bölgələrindən olan gənclər təşkilatları və fəal gənclərin muxtar respublikamıza səfəri də yaddaqalan olub. Səfər çərçivəsində fəal gənclər və 40-a yaxın gənclər təşkilatının iştirakı ilə "Naxçıvan şəhəri ölkəmizin Gənclər Paytaxtıdır" adlı tədbir, Naxçıvanda fəaliyyət göstərən ali və orta ixtisas təhsili məktəblərinin tələbələri üçün Bakı şəhərindən dəvət olunmuş təlimçi tərəfindən "Motivasiya", "Karyera və uğur" adlı təlimlər təşkil edilib.

Bundan əlavə, aztəminatlı ailələrdən olan 21 istedadlı tələbə-gəncin 1 illik təhsil haqqının Azərbaycan Respublikasının Gənclər Fondu tərəfindən ödənilməsi də gənclərimizə növbəti dövlət qayğısının təzahürüdür.

Həmsöhbətimiz onu da qeyd etdi ki, mərkəz tərəfindən gənclərin xarici dil biliklərinə yiyələnməsi də diqqət mərkəzində saxlanılır. Belə ki, Gənclər Fondunun təşkilatçılığı ilə burada ingilis, rus, fransız, alman dilləri və kompüter bilikləri üzrə hazırlıq kursları keçirilir. Müasir informasiya-kommunikasiya texnologiyaları və xarici dilin tədrisi üçün lazım olan avadanlıqlarla təmin edilmiş linqafon kabinələrində həyata keçirilən kurslarda müxtəlif sahələrdə təhsil alan və ya işləyən gənclərin iştirakı, xarici dilləri mənimsəməsi üçün hər cür şərait yaradılıb. Bu kursların keçirilməsi də gənclərin asudə vaxtlarının səmərəli təşkilinə şərait yaradır. 2014-cü ildən ötən müddət ərzində bir çox gənc kurslara cəlb edilib ki, onlardan da müvəffəqiyyət qazananlar sertifikatla təmin olunublar. Bununla yanaşı, mərkəzdə yeniyetmə və gənclərin iştirakı ilə mütəmadi olaraq "Nuh yurdu", "Nə? Harada? Nə zaman?" intellektual oyunları keçirilir. Gənclərin daha çox rəğbətini qazanan "Nuh yurdu" intellektual oyunu üzrə muxtar respublikanın bütün rayon mərkəzlərində yeniyetmə və gənclər arasında birinciliklər təşkil olunub, Gənclər Mərkəzində isə muxtar respublika və zona çempionatları keçirilib. Həmçinin kino mövzusunu əhatə edən "Milli filmlərimiz" kinoviktorinasında da gənclərimiz fəallıqla təmsil olunublar. .

Cəbi Quliyev onu da bildirdi ki, 2013-cü ildən başlayaraq müntəzəm şəkildə Ağbulaq İstirahət Mərkəzində gənclərin yay və qış məktəbləri təşkil edilir. Həmin məktəblərdə və həftəsonu istirahətlərdə sağlamlıq imkanları məhdud yeniyetmə və gənclərin, eləcə də aztəminatlı ailələrin uşaqlarının iştirakına xüsusi diqqət yetirilir. Ötən müddət ərzində – yəni 2013-cü ildən başlayaraq bu mərkəzdə təşkil olunan həftəsonu istirahətləri və yay məktəblərində 2 min 200-dən artıq gəncin istirahəti təmin edilib. Onların da böyük əksəriyyəti sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin uşaqları olublar.

Müsahibimiz vurğuladı ki, Gənclər Fondu bundan sonra da yaradılan şəraitdən səmərəli istifadə edərək öz işini qarşıya qoyulan tələblər səviyyəsində quracaq, gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların intellektual biliklərinin artırılması, layiqli vətəndaş kimi yetişmələri üçün zəruri tədbirləri davam etdirəcəkdir.

Bəli, bu faktlar belə deməyə əsas verir ki, bu gün muxtar respublikamızda gənclərlə iş sahəsində aparılan tədbirlər gəncliyin inkişafına təkan verir, onların vətənpərvərlik, Azərbaycançılıq və dövlətçilik prinsiplərinə, həmçinin tarixi-mədəni keçmişimizə, milli və mənəvi dəyərlərə rəğbət ruhunda tərbiyə olunmasında böyük rol oynayır. Gənclər üçün yaradılan imkanlar onların cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında daha da yaxından iştirakına stimul verir. Buna görə də bu gün naxçıvanlı gənclər ədəbiyyat, mədəniyyət, idman, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyev siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.

✍ **Gülcamal TAHİROVA**

# Gənclər Günü qeyd olunub

*Naxçıvan şəhərindəki "Duzdağ" otelində Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu, Gənclər və İdman Nazirliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə 2 fevral – Gənclər Gününə həsr olunan tədbir keçirilib.*



Tədbirdə çıxış edən gənclər və idman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov çıxış edərək ölkəmizdə, o cümlədən muxtar respublikamızda həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb. Bildirib ki, gənclərə qayğını hər zaman diqqət mərkəzində saxlayan ölkə başçısı cənab İlham Əliyevin "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalaması bir daha dövlətimizin gəncliyə verdiyi önəmin parlaq göstəricisidir. "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nın qəbul olunması da bu sahədə görülən işlərin davamı kimi gələcəkdə də gənclərə qayğının əsas üstünlük təşkil edən sahə olaraq qalacağına nümunədir.

Diqqətə çatdırılıb ki, muxtar respublikamızda da gənclərin sağlam, vətənpərvərlik ruhunda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu gün muxtar respublikamızda məşğul əhalinin əksəriyyətinin gənclərdən ibarət olması, onların dövlət orqanlarında irəli çəkilməsi gənclərə göstərilən diqqət və qayğıdan xəbər verir. Diyarımızda gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində həyata keçirilən tədbirlər də uğurla davam etdirilməkdədir.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi istiqamətində görülən tədbirlərdən ətraflı bəhs edib.

Vurğulanıb ki, 2018-ci il ərzində Gənclər Fondu tərəfindən təlim və seminarlar, sağlamlıq imkanları məhdud uşaqlarla bağlı tədbirlər, rayon və şəhər mərkəzlərində film nümayişləri, kitab müzakirələri, tarixi abidələrə ekskursiyalar, ekoloji təmizlik aksiyaları və digər tədbirlər keçirilib.

Çıxış edənlər gəncləri əlamətdar gün münasibətilə təbrik edib, yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıqlarını ifadə ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı gənclər təşkilatçılar tərəfindən hədiyyələrlə mükafatlandırılıblar.

Tədbir konsert proqramı ilə davam etdirilib.

✍ **Ceyhun MƏMMƏDOV**

# Təlim kursları başa çatıb



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən muxtar respublikanın ümumtəhsil məktəblərində tədris aparan fizika, kimya və biologiya müəllimləri üçün Naxçıvan Dövlət Universitetində təşkil edilən təlim kursları başa çatıb. Bu münasibətlə keçirilən tədbiri universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.

Bildirilib ki, Naxçıvan Dövlət Universitetinin elmi dərəcəli müəllimləri tərəfindən tədris olunan dördgünlük təlim kurslarında tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına, metodiki sahədə təkliflərin verilməsinə, ayrı-ayrı fənlər üzrə çətin mövzular ətrafında təhlillərin təşkilinə dair qabaqcıl təcrübə öyrədilib. Müəllimlərin fənn laboratoriyalarından istifadə bacarıqlarının artırılmasına kömək göstərilib. Qeyd olunan fənlərin aktual mövzularına həsr edilən seminarlar müasir informasiya-kommunikasiya texnologiyaları vasitəsilə keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə təhsil müəssisələrinin maddi-texniki bazası daha da möhkəmləndirilib, tədris prosesi günün tələbləri səviyyəsində qurulub. Fənn kabinələri, fizika, kimya, biologiya laboratoriyaları zəruri avadanlıqlarla təmin olunub. Bütün bunların həyata keçirilməsində məqsəd şagirdləri bilikli, bacarıqlı və dünyagörüşlü yetişdirməkdir.

Nazir vurğulayıb ki, hazırda muxtar respublikamızın ümumtəhsil məktəbləri 5500-dən çox kompüter, 600-dən çox elektron lövhə ilə, 3 milyona yaxın dərsliklə, 600 mindən çox bədii ədəbiyyatla təmin olunub. Bütün bunlar təhsilin səviyyəsinin yüksəldilməsinə geniş imkanlar açıb. Yaradılan şəraitdən səmərəli istifadə edilməsi, pedaqoji sahədəki hər bir yeniliyin diqqətdə saxlanması, tədris prosesində fənlərin şagirdlərə kifayət qədər mənimsədilməsi müəllimlərimizin ümdə vəzifəsidir.

Diqqətə çatdırılıb ki, 2018-2019-cu tədris ilindən başlayaraq tədrisin keyfiyyətinin artırılması, qabaqcıl təcrübənin öyrənilməsi, müəllimlərin müasir təlim üsulları və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə Təhsil Nazirliyi tərəfindən fransız dili müəllimləri, psixoloqlar, məktəb kitabxanaçıları, informasiya sistemlərinin əlaqələndiriciləri və digər ixtisas müəllimləri ilə kurikulum seminarları, elmi-praktik konfranslar keçirilib. Növbəti dördgünlük təlim kurslarına muxtar respublikanın ümumtəhsil məktəblərindən hər fənn üzrə 20 nəfər olmaqla, ümumilikdə, 60 fənn müəllimi cəlb edilib.

Kursu müvəffəqiyyətlə başa vuran Şahbuz rayon Nursu kənd tam orta məktəbinin fizika müəllimi Lalə Zeynalova və Babək rayon Xəlilli kənd tam orta məktəbinin kimya müəllimi Lamiyə Əliyeva çıxış edərək təhsilə və müəllimlərə göstərilən qayğıya, yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Sonda kurs iştirakçılarına sertifikatlar təqdim edilib. Qeyd olunub ki, ümumtəhsil məktəbləri ilə Naxçıvan Dövlət Universiteti arasında əməkdaşlıq bundan sonra da davam etdiriləcək.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Bu gün muxtar respublikada digər prioritet sahələr kimi səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün də ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsi üçün korpusun, Naxçıvan Tibb Kolleci binasının müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına geniş imkanlar açıb. Onların bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılır, o cümlədən xarici ölkələrdə təlimlər təşkil edilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin məzunu, tibb üzrə fəlsəfə doktoru Elvin Əliyev də onlardan biridir.*

*Gəncliyimiz, gələcəyimiz*

## Həmyerlimiz Santyaqoda uğurlara imza atır

Elvin 2013-cü ildə İspaniya Krallığının Santyaqo de Kompostela Universitetinin Tibb fakültəsində doktorantura pilləsinə qəbul olunub. Naxçıvan Muxtar Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsinin həkim-ordinatoru kimi tez-tez iş yoldaşları ilə əlaqə saxlayır, qazandığı elmi yenilikləri onlarla bölüşür. Bildirir ki, bu ölkəyə gəldiyi ilk vaxtlarda bəzi çətinliklərlə rastlaşıb. Çünki hər şey onun üçün tam fərqli və yeni idi: ölkə, mədəniyyət, din, dil və sair. Amma qarşısında bir məqsəd vardı: təhsilini uğurla başa vurmaq və "Papilyar tiroid mikrokarsinomalarında hormonal reseptorlar və BRAF-ın klinik-patoloji tədqiqi. "Porto təklifi"nin təsdiqlənməsi" mövzusunda elmi işini müdafiə etmək. Buna görə də ilk işi elmi rəhbərlərindən məsləhət və tövsiyələr almaq, elmin dərinliklərinə yiyələnmək üçün qısa zaman ərzində ispan dilini yüksək səviyyədə öyrənmək olub. İspan dili ilə yanaşı, türk, ingilis, rus və alman dillərini bilməsi onun elmi-tədqiqat



işinə mühüm fayda verib.

Doktorantura təhsili müddətində vaxtını və enerjisini faydalı işlərə sərf etməyə çalışıb. Məlum olduğu kimi, Avropa ölkələrində tədqiqat işləri ilə müxtəlif elmi-tədqiqat qrupları məşğul olurlar. Elvinin də elmi tədqiqatı tibbin üç sahəsinə əsaslandığına görə üç professorla birlikdə elmi araşdırmalar aparıb. Bunun üçün hər gün universitet xəstəxanasının Cərrahiyyə şöbəsində elmi rəhbəri professor Barreiro Morandeira ilə birlikdə xəstələrin müayinəsi və cərrahi əməliyyatların aparılmasında iştirak edib. Bununla yanaşı, cərrahiyyədə olan ən son yenilikləri öyrənməyə səy göstərib. Bu işdə Naxçıvan Muxtar Respublika Xəstəxanası və Diaqnostika-Müalicə Mərkəzinin həkim cərrahları ilə apardığı birgə əməliyyatları zamanı qazandığı təcrübə, tələbəlik illərində və fəaliyyət göstərdiyi doğma kollektivdə əldə etdiyi nəzəri və praktik biliklər daim onun köməyinə çatıb.

Elvin bildirir ki, günortalar universitet xəstəxanasının Patoloji anatomiya şöbəsində digər elmi rəhbəri professor Manuel Kamesege Teixeiro ilə tiroid vəzi toxumalarının makro və mikroskopik müayinə və diaqnostikasını icra etməklə yanaşı, elmi rəhbərindən bu sahədə olan yenilikləri və elmin sirlərini öyrənib. Digər tərəfdən, elmi rəhbəri ilə birgə tiroid mikrokarsinomalarında hormonal reseptorların ifadəsini və molekulyar dəyişiklikləri, xüsusən BRAF mutasiyasını və bunların xərçəngin yaranma və inkişafına təsirini öyrənməyə çalışıb.

Elvin günün qalan hissəsini Molekulyar tibb və xroniki xəstəliklər üzrə tədqiqat laboratoriyasında keçirib. Burada digər elmi rəhbəri professor Klara Alvarez Villamarinin tövsiyələri və nəzarəti ilə elmi tədqiqatının önəmli məqsədlərindən olan çoxsaylı immunohistokimya texnikasını inkişaf etdirməyə çalışıb. Eyni zamanda məqsədləri bu metodu insan toxumaları üzərində inkişaf etdirmək və gələcəkdə xəstəliklərin diaqnostikasında tətbiq etmək olub. Buna görə əksər hallarda günlərlə laboratoriyada tədqiqat aparıb. Nəhayət, elmi rəhbəriylə birlikdə bu metodla prostat vəzi, süd vəzi və tiroid vəzinin normal və şiş toxumalarında üç müxtəlif hormonal reseptorların və digər transkripsiya amillərin eyni bir nümunə üzərində, hətta eyni bir hüceyrədə ifadəsini aşkarlamağa nail olub. Sadə, bəsit immunohistokimyadan fərqli olaraq bu metodun onkoloji xəstəliklərin diaqnostikası və müalicəsində daha çox fayda verəcəyi qənaətinə gəlib.

Elvin bir neçə ixtisas imtahanından uğurla keçərək tibb diplomunu İspaniyada tanıtmağa nail olub. O, doktorantura ərzində təhsilə aid bütün tələbləri vaxtında, düzgün və səlis şəkildə yerinə yetirməklə yanaşı, bir çox elmi məqaləsinin nəşr olunmasına, çoxlu sayda yerli və beynəlxalq konfranslarda çıxış etməyə müvəffəq olub. Nəhayət, 2018-ci ildə elmi işinin praktik və nəzəri tərəflərini yekunlaşdırıb, bu il yanvarın 11-də uğurla müdafiə edib. Artıq səbirsizliklə doktorantura diplomunu alacağı günü gözləyir.

Elvin deyir ki, elmi fəaliyyəti ilə yanaşı, bu müddət ərzində uzaq İspaniyada milli-mədəni dəyərlərimizi, dilimizi, dinimizi, mədəniyyətimizi, hətta milli mətbəximizi tanıtmağa da çalışıb. Madriddə səfirliyimizin təşkil etdiyi tədbirlərdə iştirak edib.

Elvin gənc mütəxəssislərin xarici ölkələrdə təcrübə mübadiləsinə, təkmilləşdirmə kurslarına, doktoranturada təhsillərini davam etdirməyə göndərilməsini onlara göstərilən dövlət qayğısının bəhrəsi kimi dəyərləndirir və qazandığı nailiyyətlərə görə muxtar respublika rəhbərinə öz minnətdarlığını bildirir. Artıq tezislər şəklində nəşr olunmuş kitabının ön səhifələrində də deyilənlər öz əksini tapıb. O, yenidən Naxçıvan Muxtar Respublika Xəstəxanasının Cərrahiyyə şöbəsində işləmək və təcrübəsini həmkarları ilə bölüşmək, onlarla birlikdə yenilikləri tətbiq etmək, doğma Naxçıvanımızda həmvətənlərinin sağlamlığı keşiyində dayanmaqla ona göstərilən dövlət qayğısını doğrultmaq arzusundadır.

**Hüseyn ƏSGƏROV**

## Yeni vergi islahatları əhalinin rifahını yaxşılaşdıracaq

*Vergi qanunvericiliyindəki dəyişikliklər son vaxtlar ictimaiyyət arasında ən çox müzakirə olunan mövzulardan birinə çevrilib. Biz də bunu nəzərə alaraq oxucularımızı bu mövzuda məlumatlandırmaq üçün Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi Qəzənfər Bayramovla həmsöhbət olduq. O dedi:*

– Vergi islahatlarının əsas nəticəsi vergiödəyicilərinin vergi yükünün azaldılmasına xidmət edir. Ümumilikdə, ölkənin Vergi Məcəlləsinə 240-dan çox əlavə və dəyişikliklər olunub. Onlar əsas beş istiqaməti – sahibkarlığa dəstəyi, iqtisadi şəffaflığın təmin olunmasını və iqtisadiyyatda "kölgə" sektorunun payının azaldılmasını, vergi tutumu bazasının genişləndirilməsini, vergi nəzarətinin mükəmməlləşdirilməsini, sahibkarlar üçün güzəşt və azadolunmaların effektivliyinin artırılmasını özündə birləşdirir.

"Vergi sahəsində aparılan islahatlar, ümumilikdə, vergiödəyicilərində vergi ödənişi mədəniyyətinin aşılanmasına yönəldilib. Belə ki, vergi islahatları və gəlir vergisindən azadedilmə 2019-cu ildə ölkə üzrə dövlət büdcəsinə daxil olan vəsaitlərin 316 milyon manata qədər azalmasına gətirib çıxaracaq. Aparılan bu islahatın başlıca məqsədlərindən biri mikroiqtisadiyyata və kiçik biznesin inkişafına təkan verməkdir. Sadələşdirilmiş vergi məbləğinin 2 faizə endirilməsi (bu vaxta qədər Bakı ərazisində fəaliyyətə görə 4 faiz sadələşdirilmiş vergi tutulurdu) ilə bağlı qərar məhz buna xidmət edəcək", – deyən müsahibim izah edir: – Dövlət kiçik biznesin inkişafı üçün əlverişli şərait yaradan zaman sahibkarlar tərəfindən vergi güzəştləri ilə bağlı sui-istifadə hallarına yol verilməməsi üçün bir sıra konkret addımlar atıb. Aparılan son dəyişikliklər çərçivəsində sadələşdirilmiş vergiödəyicisi statusuna malik şəxslərin halqası daralıb. Xüsusilə sözügedən status bundan sonra hüquqi şəxslərə xidmət göstərən vergi ödəyicilərinə, həmçinin qızıl, qızıl məmulatları, almaz, dəri və xəz məmulatlarının alqı-satqısı ilə məşğul olan sahibkarlara şamil olunmayacaq. Həmçinin lisenziya əsasında (tikinti sahəsini çıxmaq şərtilə) fəaliyyət göstərən şəxslər artıq sadələşdirilmiş vergi ödəmək məcburiyyətində qalmayacaq.

Qəzənfər Bayramovun sözlərinə görə, sahibkarlıq fəaliyyətinin aparılması üçün əlverişli şərait, ilk növbədə, mikrobiznes üçün yaradılıb. Yeni meyarlara görə, Azərbaycanda biznes üç deyil, dörd kateqoriyaya bölünür: iri, orta, kiçik və yeni əlavə olunan anlayış – mikrobiznes. Nazirlər Kabinetinin qərarına əsasən mikrobiznesə ştatında 1-dən 10-a kimi işçisi olan və illik gəlirləri 200 min manatdan çox olmayan müəssisələr aiddir. Kiçik müəssisələrə ştatında 11-dən 50-yə kimi işçiyə və illik gəlirləri 200 min manatdan 3 milyon manata malik şirkətlər daxildir. Orta müəssisələr kateqoriyasına ştatında 51-dən 250-yə qədər işçisi olan və illik gəlirləri 3 milyondan 30 milyon manata qədər olan müəssisələr aiddir. Nəhayət, iri müəssisələr ştatında 250-dən çox işçisi və illik gəlirləri 30 milyon manatı üstələyən müəssisələr hesab olunur.

Vergi Məcəlləsində aparılan dəyişikliklərə əsasən sahibkarlar kiçik və orta sahibkarlıq subyektlərinin (KOB) vahid reyestrində qeydiyyata alındıqları andan yeddi il müddətinə gəlir və ya mənfəət, torpaq və əmlak vergisindən azad ediləcək. Bundan başqa, KOB klaster seqmentinin "startap"ları üç il müddətinə gəlir və mənfəət vergisindən azad olunacaqlar.

Mikrobiznes kateqoriyasına daxil olan vergiödəyicilərinə vergi ilə bağlı tətbiq ediləcək güzəştlər haqqında sorğumuzu da cavablandıran həmsöhbətim vurğuladı ki, həmin vergiödəyicilərdən daxil olan gəlirlərin 75 faizi vergidən azad olunacaq, biznesmenin yalnız yerdə qalan 25 faiz gəlirindən 20 faiz gəlir tutulacaq. Yanvarın 1-dən (2019-cu il) etibarən sabit məbləğdə vergi ödəyən vergiödəyicilərinin siyahısına (fərdi yaşayış evlərində və mənzillərdə ev qulluqçusu, xəstələrə, qocalara və uşaqlara qulluq xidməti, dayə, fərdi sürücülük, ev təsərrüfatında təmizlik, bağban, aşpaz, gözətçi və digər analoji işlər) dərzilər, ofisiantlar və bərbərlər əlavə olunub. Belə ki, bu peşələrin nümayəndələri (özlərinə muzdlu işçilər götürməyəcəkləri təqdirdə) müvafiq sahələrdə fəaliyyət üçün bir ay, bir rüb, yarım il və ya bir il müddətinə xüsusi icazələr almalı və vergi qurumunun tələbi ilə sabit verginin ödənilməsi haqqında qəbz təqdim etməli olacaqlar. Onlar hər hansı hesabat verməyəcəklər. Bu kateqoriyaya aid fiziki şəxslərdən tutulan aylıq sabit vergi bərbərlər üçün 15, dərzilər və ofisiantlar üçün 10 manat təşkil edəcək. Xidmətlərin göstəriləcəyi yerdən asılı olaraq vergi haqqının hesablanmasında əmsallar da tətbiq olunacaq (Naxçıvan şəhəri üzrə əmsal 1, muxtar respublikanın digər yerləri üzrə isə əmsal 0,5-dir).

Gəlir vergisi və sosial sığorta ilə bağlı yeniliklərin də əhəmiyyətindən bəhs edən Qəzənfər Bayramov bildirdi ki, qeyri-neft sektorunda çalışan və aylıq gəlirləri səkkiz min manatdan aşağı olan işçilərin yeddi il müddətinə gəlir vergisindən azad edilməsi inqilabi bir dəyişiklik oldu. Aylıq gəliri qeyd olunan məbləğdən yuxarı olan vergiödəyiciləri üçün isə vergi 14 faiz səviyyəsində təsbit olunub. Xatırladaq ki, bundan əvvəl 2500 manata qədər qazanc əldə edənlər 14, 2500-dən çox gəliri olanlar isə 25 faiz vergi ödəyirdi.

Bundan başqa, əmək müqaviləsi əsasında məcburi dövlət sosial sığortası üzrə ödənişlərin əsas yükü sahibkarların çiyninə düşürdü. Bu məsələ də diqqətdən kənarda qalmayıb. Belə ki, dəyişikliklərə əsasən işçinin aylıq əməkhaqqı 200 manat təşkil edəcəyi halda, məcburi dövlət sosial sığorta ayırmaları cari səviyyədə qalacaq – maaşının 3 faizini işçi, 22 faizini işəgötürən ödəyir. Ancaq işçinin aldığı əməkhaqqı 200 manatdan çox olarsa, o zaman işçi 6 manat və 200 manatdan artıq məbləğin 10 faizi miqdarında sosial sığortahaqqı ödəyəcək. Bu halda işəgötürən 44 manat və 200 manatdan artıq məbləğin 15 faizi miqdarında sığortahaqqı ödəyəcək. Bu dəyişikliklər özəl sektorda çalışan (neft-qaz sahəsinə aid olmayan) işçilərə şamil olunur. Yeri gəlmişkən, məcburi sosial sığorta və işsizlikdən sığorta ödənişlərinə nəzarət Vergilər Nazirliyinə həvalə edilib.

"Həyata keçirilən vergi islahatları "kölgə" iqtisadiyyatının payının əhəmiyyətli dərəcədə azalmasına səbəb olacaq. Düzdür, cari vergi islahatlarından ilkin mərhələdə büdcə maddi ziyan görəcək, lakin sonda vergitutma bazasının genişlənməsi və "kölgə" iqtisadiyyatının "ixtisarı" hesabına büdcəyə qeyri-neft sektorundan daxil olan vəsaitlərin həcmi artacaq. Bu isə, öz növbəsində, təqaüd və cəmiyyətin həssas təbəqəsi üçün nəzərdə tutulan müxtəlif sosial müavinətlərin artırılması hesabına ölkə vətəndaşlarının rifahının əhəmiyyətli dərəcədə artırılmasına imkan verəcək", – deyə müsahibim bildirdi.

Aparılan dəyişikliklərin, ümumilikdə, vergiödəyicilərinin maliyyə imkanlarının artırılmasına yönəldiyini diqqətə çatdıran müsahibim onu da əlavə etdi ki, son 10 ilə nəzər salsaq, bu vaxta qədər dünyanın heç bir ölkəsində belə genişmiqyaslı vergi islahatları aparılmayıb.

**Ramiyyə ƏKBƏROVA**

## "Bir ovuc sevgi"

*Gənclərdə ətraf mühitə sevgi və qayğı hisslərinin yüksəldilməsi məqsədilə Naxçıvan şəhərindəki Atabəylər məhəlləsindəki istirahət parkında "Bir ovuc sevgi" devizi altında tədbir keçirilib.*



Keçirilən tədbirin məqsədi ətraf mühitin mühafizəsi ilə bağlı təbliğat işinin gücləndirilməsi, bu işdə gənclərin yaxından iştirakının təmin edilməsi, Naxçıvan şəhərində yerləşən bağlarda quşların qış aylarında sığınacaq və yemlə təchiz olunmasıdır.

Layihənin ideya müəllifi Naxçıvan Müəllimlər İnstitutunun tələbəsi Gülay Quliyevadır.

Gənclərin iştirakı ilə hazırlanan yuvalar və yem qabları istirahət parkı ərazisində ağaclara asılıb, yem qablarına dən tökülüb. Həmçinin gənclərə süni quş yuvalarının hazırlanması haqqında bukletlər paylanılıb. Yem qabları mütəmadi olaraq gənclər tərəfindən yoxlanılacaq, boş yem qabları doldurulacaqdır.

Onu da bildirək ki, qeydiyyatdan keçən 40-a yaxın könüllü gəncin iştirak etdiyi tədbir Gənclər və İdman Nazirliyi, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayon Şıxmahmud kənd sakini Cəfərova Ləli Abdulla qızına məxsus JN-522 nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" itdiyindən etibarsız sayılır.

* * *

Babək rayon Şıxmahmud kənd sakini Məmmədov Məhərrəm Əziz oğluna məxsus JN-607 nömrəli "Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı" itdiyindən etibarsız sayılır.

### Bildiriş

"Miqro" Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN-0200984081) hüquqi adı dəyişdirilərək "Babək İnformasiya" MMC-yə çevrilmişdir.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 81